

# Nizami Məmmədov TAĞISOY-75

*Hörmətli Nizami müəllim!*

*Sizi - görkəmli ədəbiyyatşünas alimi, türkoloji ədəbiyyat üzrə tanınmış mütəxəssisi, filologiya elmləri doktoru, professor, Azərbaycanın Əməkdar müəllimi 75 illik yubileyiniz münasibəti ilə təbrik edirik.*

***Siz 1950-ci ilin 24 mayında Ucar rayonunun Yuxarı Şilyan kəndində doğulmusunuz. İbtidai və orta təhsilinizi doğma kənddə və Bağman Bərgüşad kəndində başa vurmusunuz. 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə imtahan verib müsabiqədən keçmədiyinizə görə 1968-1970-ci illərdə ordu sıralarında xidmət etmisiniz. Əsgərlikdən sonra M.F.Axundov adına Xarici Dillər İnstitutunun Rus dili və Ədəbiyyatı fakültəsinə daxil olmuş, 1975-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun adı çəkilən fakültəsini fərqlənmə diplomu ilə bitirmisiniz. 1975 - 1982-ci illərdə doğma kənddəki orta məktəbdə rus dili və ədəbiyyatı müəllimi işləmisiniz. Məktəbdə işləyə-işləyə ali təhsil aldığınız İnstitutun rus sovet ədəbiyyatı ixtisası üzrə aspiranturasının qiyabi şöbəsinə qəbul edilmisiniz. Bir ildən sonra əyani şöbəyə keçirilmiş və 1986-cı ildə "Səməd Vurğun pyeslərinin rus tərcümələri və onların səhnə təcəssümü" mövzusunda namizədlik dissertasiyası müdafiə etmisiniz. 1980-ci ildən başlayaraq taleyinizi ali təhsil aldığınız ali məktəblə birdəfəlik bağlamısınız. 1990-1992-ci illərdə siz əyani doktoranturada oxumuş, doktorantura müddəti başa çatmazdan əvvəl "XX əsr rus sovet poeziyasının Azərbaycan dilinə tərcüməsi problemləri: tarix, nəzəriyyə və praktika (1920-1970-ci illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmisiniz.***

***1993-cü ildən filologiya elmləri doktoru, 1994-cü ildən professorsunuz.***

***Ali məktəbdə çalışdığınız illərdə Siz çoxsaylı dərs vəsaiti, metodik vəsait, dərslik və proqramlar hazırlamısınız.***

***2010-cu ilin yanvarından Siz akademik Bəkir Nəbiyevin dəvəti ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində baş elmi işçi kimi də çalışmaqdasınız.***

***Siz müxtəlif illərdə "XXI əsrin görkəmli alimləri və ziyalıları" (2004) ensiklopediyasına daxil edilmisiniz. "Qızıl qələm" (2010), "Xalqın nüfuzlu ziyalısı" (2011), "Azərbaycanın Əməkdar müəllimi" (2017) adını almısınız. Qazaxıstan Respublikasının Əl-Fərabi adına gümüş medalına (2018), "Molla Pənah Vaqif" medalına (2022), qazax mütəfəkkiri "Əhməd Baytursınulı" medalına (2023) və digər mükafatlara layiq görülmüsünüz.***

***AMEA-nın "İlin alimi" (2017) nominasiyasının qalibi olmusunuz.***

***Uzun müddət ərzində AMEA-nın Folklor İnstitutunda fəaliyyət göstərən doktorluq dissertasiyalarının müdafiəsini həyata keçirən Dissertasiya Şurasının üzvü olmuş və bu gün də həmin Şurada fəaliyyətinizi davam etdirməkdəsiniz.***

***2016-2022-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında Ekspert Şurasının üzvü olmusunuz.***

***Tərcümə tarixi, nəzəriyyəsi və praktikası ilə bağlı hazırladığınız "XX əsr rus sovet poeziyası Azərbaycan tərcümələrində" (1992 - rus dilində), "Əslin milli özünəməxsusluğu və tərcümə" (1998 - rus dilində), "Səməd Vurğun dramaturgiyası rus dilində" (1999 - rus dilində), "Poetik tərcümə" (2001 - rus dilində) kitablarınızda adıçəkilən elm sahəsinin çeşidli istiqamətlərini çoxsaylı yönlərdən təhlil etməyə müvəffəq olmusunuz.***

***Regional folklor və etnoqrafiya istiqamətinə üstünlük verib hazırladığınız "Şilyan: özü, sözü - çeşmənin gözü" (2010) adlı kitabınız dünyaya göz açdığınız elin-obanın landşaftını, koloritini, ab-havasını yaratmaq baxımından oxucu və mütəxəssislər tərəfindən maraqla qarşılanmışdır. Uzun illər və böyük zəhmət hesabına araya-ərsəyə gətirdiyiniz "Meyxananın poetikası" (2011) kitabınız isə meyxananın tarixini, çeşidli tərəflərini, xüsusiyyətlərini bu sahədə ortaya qoymaq baxımından hələlik ilk və son araşdırmadır.***

***Siz keçən əsrin 80-ci illərindən başlayaraq, elmi maraq dairənizə daxil etdiyiniz rus və Azərbaycan dillərində hazırladığınız materiallardan başlayaraq elm ictimaiyyətinə yaxşı tanışınız.***

***Sizin araşdırma obyektiniz məhsuldar olmaqla Azərbaycan, rus, ukrayna və türk xalqları ədəbiyyatının çeşidli sahələrini əks etdirməkdədir.***

***Sizin son dərəcə maraqlı sahəyə həsr olunmuş monoqrafik araşdırmalarınız Azərbaycan ədəbiyyatı və türkoloji ədəbiyyatsevərlərə yaxşı tanışdır.***

***Siz indiyə qədər 100-dən artıq Beynəlxalq konfrans və simpoziumların iştirakçısı olmaqla, Türkiyə, Qazaxıstan, Qaraqalpaqıstan, Qırğızıstan, Belarus, Rusiya, Başqırdıstan, Tatarıstan, Qaraçay, Malkar, Noğayıstan, Qaqauziya, Türkmənistan, Gürcüstan, Özbəkistan, Altay və digər ölkə və dövlətlərdə keçirilən çoxsaylı elmi məclislərin iştirakçısısınız. Bu konfrans və simpoziumlarda bir qayda olaraq siz Azərbaycan və türk xalqlarının folklorunu, eposunu, klassik və müasir ədəbiyyatını komparativist müstəvidə nəzərdən keçirməyə çalışmısınız.***

***Siz Azərbaycanda çoxsaylı qəzet - "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Ədəbiyyat qəzeti", "525-ci qəzet", "Kaspi", "Ədalət", "Bütöv Azərbaycan", "Elm", "Kredo", "Şərq", "Türküstan", "Bakinski raboçi", "Azərbaycan müəllimi", "Qarabağa aparan yol", "İki sahil" və jurnallarda - "Azərbaycan", "Literaturnı Azərbaycan", "Azərbaycan məktəbi", "Mir literaturı", "Ulduz", "Elm və həyat" və digər mətbu orqanlarında ardıcıl olaraq məqalə və materiallar çap etdirməkdəsiniz.***

***Son illərdə Sizin Azərbaycan və türk xalqları ədəbiyyatının nəzəri və praktik, o cümlədən, müasir ədəbiyyatşünaslığın çeşidli problemlərini əks etdirən məsələlərə daha çox rus və Qərb ədəbi-nəzəri fikrindən gələn yanaşmalar kontekstində nəzər salmağınız axtarışlarınızın və elmi-nəzəri erudisiyanızın çoxyönlülüyündən və çeşidli istiqamətlərindən xəbər diləyirik.***

***Hörmətli Nizami müəllim! Sizi yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, uzun şərəfli alim ömrü və yeni yaradıcılıq uğurları diləyirik!***

**Azərbaycan Yazıçılar Birliyi**